## TƏSNİFAT SİSTEMİ – XXXIII OLİMPİYA OYUNLARI – PARİS 2024
## BEYNƏLXALQ AĞIR ATLETİKA FEDERASİYASI (IWF)

### A. ÇƏKİ DƏRƏCƏLƏRİ (10)

| Kişilər (5) | Qadınlar (5) |
|---|---|
| 61 кq (≤61.00 kq) | 49 kq (≤49.00 kq) |
| 73 kq (61.01 kq - 73.00 kq) | 59 kq (49.01 kq - 59.00 kq) |
| 89 kq (73.01 kq - 89.00 kq) | 71 kq (59.01 kq - 71.00 kq) |
| 102 kq (89.01 kq - 102.00 kq) | 81 kq (71.01 kq - 81.00 kq) |
| +102 kq (>102.00 kq) | +81 kq (>81.00 kq) |

### B. İDMANÇILARIN LİSENZİYALARI

**a) Ağır atletika üçün lisenziyaların ümumi sayı:**

| | Olimpiya təsnifatının reytinqi | Qitə nümayəndəliyi üzrə | Təşkilatçı ölkənin kvotası | Universal lisenziya | Cəmi |
|---|---|---|---|---|---|
| **Kişilər** | 50 | 5 | 2 | 3 | 60 |
| **Qadınlar** | 50 | 5 | 2 | 3 | 60 |
| **YEKUN** | 100 | 10 | 4 | 6 | 120 |

| Kişilər | Qadınlar |
|---|---|
| 60 | 60 |

**b) Milli Olimpiya Komitəsi (MOK) tərəfindən idmançıların maksimal sayı:**

| Cins | MOK üçün maksimum | Çəki dərəcəsinin xüsusiyyəti |
|---|---|---|
| Kişilər | 3 | Hər çəki dərəcəsində 1 (bir) idmançı |
| Qadınlar | 3 | Hər çəki dərəcəsində 1 (bir) idmançı |

**c) Çəki dərəcələri üzrə idmançıların maksimal sayı**

| | Hər çəki dərəcəsində idmançıların maksimal sayı |
|---|---|
| Kişilər - hər çəki dərəcəsi üzrə | **12 (1 nəfər MOK üzrə)** |
| Qadınlar - hər çəki dərəcəsi üzrə | **12 (1 nəfər MOK üzrə)** |

**d) Lisenziyaların paylanması tipləri:**

İdmançılara lisenziyalar adlarına görə bölüşdürülür.

Əgər Milli Olimpiya Komitəsində lisenziya hüququ olan eyni cinsdən 3-dən (üç) çox idmançı varsa, Milli Olimpiya Komitəsi idmançıların maksimum sayını nəzərə alaraq, idmançıların hansının lisenziya alacağına çəki dərəcələrinə müvafiq olaraq qərar verəcəkdir.

Təşkilatçı ölkəyə verilmiş lisenziya MOK tərəfindən uyğun idmançılar arasında bölüşdürülür.

Universal lisenziyalar şəxsən adbaad olaraq uyğun idmançılar arasında bölüşdürülür.

## C. İDMANÇININ İŞTİRAK HÜQUQU

**Olimpiya xartiyasına və digər müvafiq qaydalara riayət olunması.**

Bütün idmançılar hazırda qüvvədə olan Olimpiya Xartiyasının şərtlərinə uyğun olmalı, həmçinin 41-ci (iştirakçıların vətəndaşlığı) və 43-cü (Yarışlarda manipulyasiyanın qarşısının alınması ilə bağlı Ümumdünya Antidopinq və Olimpiya Hərəkatı kodeksləri) maddələrinə müvafiq olmalıdırlar.

Yarışlarda manipulyasiyanın qarşısının alınması ilə bağlı Olimpiya Xartiyasına, Ümumdünya Antidopinq və Olimpiya Hərəkatı kodekslərinə hörmət və riayət edən idmançılar Paris-2022 Yay Olimpiya Oyunlarında iştirak edə bilərlər. Bundan başqa, bura İOC (Beynəlxalq Olimpiya Komitəsi) tərəfindən müəyyən olunmuş iştirak şərtlərinə və IWF-in (Beynəlxalq Ağır Atletika Federasiyası) qaydalarına hörmət və riayət edən idmançılar aid edilirlər.

**Yaş tələbləri**

Paris-2024 Olimpiya Oyunlarında iştirak edəcək idmançıların doğum ili maksimum 31 dekabr 2009-cu il tarixindən yuxarı olmamalıdır.

**Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) əlavə şərtlərinin məqbulluğu**

Səlahiyyətli olmaq üçün, idmançı aşağıdakı şərtlərə uyğun olmalıdır:

***1) İdmançı yarışlarda mütləq iştirak etməlidir***

a) İdmançı növbəti yarışlarda iştirak etməlidir:

**i. Məcburi olan yarışlar**

- 2023 - Dünya çempionatı (böyüklər arasında) - 2023-cü ilin 4-cü rübü;
- 2024 - Dünya Kuboku - 2024-cü ilin 2-ci rübü.

Qeyd olunan yarışlarda iştirak etmək ***məcburidir***; əgər idmançı qeyd olunan yarışların heç birində iştirak etmirsə, o halda idmançı, həqiqətən müstəsna hallar istisna olmaqla, Paris-2024 Olimpiya Oyunlarında iştirak etmək hüququ əldə etməyəcəkdir.[1]

**ii. Əlavə yarışlar**

Minimum aşağıdakı növbəti yarışların üçündə iştirak etmək:

- 2022 - Dünya çempionatı (böyüklər arasında) - 2022-ci ilin 4-cü rübü;
- 2023 - Avropa çempionatı (böyüklər arasında) və ya Avropa Oyunları - böyüklər arasında Avropa çempionatını rəsmi əvəz edirsə - 2023-cü ilin 1-2 rübü
- 2023 IWF I - Qran-Pri Turniri - 2023-cü ilin 2-3 rübü
- 2024 IWF II - Qran-Pri Turniri - 2023-cü ilin 3-4 rübü
- 2024 - Avropa çempionatı (böyüklər arasında) - 2024-cü ilin 1-2 rübü.

b) Təşkilatçı lisenziya yerlərini almaq üçün təşkilatçı dövlət mütləq olaraq iki vacib yarışda iştirak etməlidir. C.1.a.i və ən azı C.1.a.ii bölməsində olan iki yarışda..

c) Universal lisenziya yerlərini almaq üçün idmançılar ən azı C.1.a.i. və C.1.a.ii bölməsində qeyd olunan yarışlardan ikisində iştirak etməlidirlər.

d) Yuxarıda qeyd olunan vasitələrin məqsədləri üçün iştirak etmək belə başa düşülür;
- ən azı (minimum) idmançıların çəkilmə otağına gəlmələri
- idmançıların rəsmi təqdimatında təqdim olunmaq (IWF-nin Texniki və yarış qaydalarına (6.5.) əsasən)

Şübhənin qarşısını almaqdan ötrü yarışda iştirak etmək tələb olunmur.

e) Antidopinq testlərinin aparılmasını asanlaşdırmaq üçün xatırladılır: IWF-in Antidopinq qaydalarının 5.5.16 bəndinə müvafiq olaraq *Üzv federasiyalar IWF-in yarışlarına buraxılacaq idmançıların siyahısını məkan məlumatları ilə birgə IWF-ə təqdim etməyə borcludurlar: IWF-in növbəti yarşlarına minimum 2 ay qalmış (a) ev ünvanı və (b) məşq yeri haqqında məlumatları hər bir iştirakçı idmançıdan almaq. Əgər IWF-in yarışı dünya çempionatıdırsa (yeniyetmələr, gənclər və ya böyüklər), o halda sözü gedən yarışa 3 ay qalmış dövrü əhatə edir.* Bütün idmançılar IWF-in və/və ya Milli Antidopinq Agentliyinin qaydalarına əsasən xəbərdarlıq edilmədən test nümunələrinin verilməsinə məruz qala bilərlər. Əgər idmançı beynəlxalq və ya milli test qrupunda qeydiyyata alınıbsa, o halda o Qeydiyyata alınmış Test Qrupu statusunda məkan məlumatını vermək tələblərinə müvafiq olmalıdır. İdmançı məkan məlumatının verilməsi tələblərini yerinə yetirməzsə, o halda o, məcburilik tələb olunan yarışlarda iştirak hüququndan məhrum olacaqdır.

---

[1] İdmançının yarışa qatılmasına mane olan və ya səyahət məhdudiyyətləri səbəbindən yarışda iştirakını qeyri-mümkün edən həqiqi müstəsna hallar (məsələn, ciddi zədəni təsdiq edən sənədli sübut). Qaydaların ümumi məqsədini nəzərə alaraq müstəsna hallar ciddi şəkildə tətbiq olunmalıdır. Həqiqi müstəsna halların mövcudluğuna BAAF-ın İcraiyyə Komitəsi tərəfindən təyin olunmuş 5 (beş) nəfərdən ibarət komissiyanın (Beynəlxalq Test Agentliyi tərəfindən 3 (üç) nəfər, (BTA və ən azı 1 (bir) həkim) və BAAF-ın Texniki və Tibbi komitəsinin sədrləri (səsvermə hüququ olmamaq şərtilə) daxil olmaqla, üzvlərin mütləq rəyi əsasında baxılacaqdır. Komissiya tərəfindən baxılma prosedurunu tənzimləyən qaydalar BAAF-ın İcraiyyə Komitəsi tərəfindən nəşr oluna bilər. Həqiqi müstəsna hallara əsaslanan istənilən azadolma ərizəsi, müstəsna hallar məlum olduğu andan ən qısa müddətdə və idmançının iştirak etmədiyi yarışın son günündən ən geci 5 (beş) gün ərzində IWF-in Katibliyinə təqdim olunmalıdır.

a) Beynəlxalq Test Agentliyi (ITA) risklərin qiymətləndirilməsi əsasında “Testlərin aparılması və tədqiqatı üzrə Beynəlxalq standarta” (ISTI) uyğun olaraq yarışma müddətində və yarışmadan kənar müddətində testlərin etibarlı bölüşdürülməsini və həyata keçirilməsini planlaşdıracaqdır. Bundan başqa dopinq tarixi olan ölkələrə diqqətin artırılması tendensiyası artırılacaq və bununla məhdudlaşmayacaqdır.

***2) Zəruri təhsil***

a) Qeydiyyata alınmış Test Qrupuna daxil olunmuş hər bir idmançı liseziya almaq hüququna malik olması üçün ÜADA-nın ADEL (Antidopinq təhsili və təlimi) və ona bərabər olan milli antidopinq təşkilatının idmançılar üçün müvafiq elektron təlim kursunu keçməlidir (https://adel.wada-ama.org/learn). Və ya idmançı lisenziya almaq hüququna malik olmaq üçün qeyd olunan elektron təhsilə bərabər olan milli antidopinq kursunu icbari qaydada keçməlidir. Hər bir milli federasiya/MOK əmin olmalıdır ki, onun idmançısı lazımi qaydada qeyd olunan proqramı başa çatdırıb və aldığı sertifikatı 28 aprel 2024-cü il tarixindən gec olmayaraq IWF-ə təqdim edib və bu haqda MOK-u məlumatlandırıb.

## Antidopinq qaydalarının pozulmasının nəticələri

IWF-in Antidopinq qaydalarının 12.1 maddəsinə uyğun olaraq Müstəqil Komissiyanın səlahiyyətlərinə xələl gətirmədən, IWF-in Antidopinq qaydalarının 12-ci maddəsinə müvafiq hər hansı digər nəticələri tətbiq etmək üçün aşağıdakı müddəalar tətbiq olunur:

a) 23 iyul 2021-ci il tarixindən 25 iyul 2024-cü il tarixinədək olan dövrdə əgər milli federasiya tərəfindən IWF-in antidopinq qaydaları üzrə öhdəlikləri pozularsa, bundan əlavə 18-ci maddə daxil olmaqla (12-ci maddə istisna olmaqla) antidopinq məsələlərində hər hansı göstəriş və sorğunu yerinə yetirməyibsə, o halda Müstəqil Komissiya milli federasiyadan Paris-2024 və/və ya növbəti Olimpiya oyunları üçün lisensiyaların hamısını və ya bir hissəsini geri ala bilər.

b) IWF və antidopinq təşkilatları (milli antidopinq təşkilatı istisna olmaqla) tərəfindən sanksiyalaşmış 3 (üç) və daha artıq antidopinq qaydalarının milli federasiyanın/MOK-un heyətinə daxil olan idmançılar və ya digər şəxslər tərəfindən 23 iyul 2021-ci il tarixindən 25 iyul 2024-cü il tarixinədək olan dövrdə pozuntusu aşkar olunarsa, o halda Müstəqil Komissiya milli federasiyadan Paris-2024 və/ və ya *növbəti Olimpiya oyunları*[2] üçün lisenziyaların hamısını və ya bir hissəsini geri ala bilər**.** Üç və ya daha çox pozuntu dörd il və ya daha çox müddətə diskvalifikasiya ilə nəticələndiyi hallarda, bütün lisenziyalar geri alınır.

c) Yuxarıdakı a) və b) bəndlərinin tətbiqinə baxılarkən Müstəqil Komissiya IWF-in antidopinq qaydalarının 12.3.2 və 12.4 maddələrində təfsir olunmuş prinsiplərinə istinad edə bilər. Eynilə, IWF Antidopinq Qaydalarının 12.7-ci maddəsinin prosedur qaydaları yuxarıda göstərilən müddəalara aid olan prosesə oxşar şəkildə tətbiq edilir

[2] Növbəti Olimpiya oyunları ilə münasibətdə lisenziyaların sayının azaldılmasını onunla əsaslandırmaq olar ki, üçüncü qayda pozuntusu haqda məlumat Paris-2024 Olimpiya oyunlarından sonra bəyan olunub.

d) Yuxarıda a) və ya b) bəndlərinə müvafiq olaraq geri alınmış istənilən lisenziya aşağıda qeyd olunan qaydada yenidən bölüşdürülməlidir: **F. İstifadə olunmamış lisenziyaların yenidən bölüşdürülməsi.**

e) IWF-in antidopinq qaydalarının 12.3.3 maddəsinə əsasən, əgər müəyyən olunsa ki, milli federasiyanın/MOK-un heyətinə daxil olan 2 (iki) və daha artıq idmançı və ya digər şəxslər tərəfindən antidopinq qayda pozuntusu olubsa, eynilə onlar 4 (dörd) il və daha çox müddətə diskvalifikasıya olunubsa, həmçinin bu pozuntu Paris-2024 Olimpiya Oyunları dövrünü əhatə edirsə (nümunələrin sonrakı analizi daxil olmaqla), o halda uyğun federasiya/MOK tərəfindən idmançı və ya digər şəxslərin adlarının növbəti Olimpiya Oyunlarına namizəd göstərilməsi, sifariş edilməsi və/ və ya təklif edilməsi qadağan ediləcəkdir. IWF-in antidopinq qaydalarına uyğun olaraq hər hansı digər sanksiyalara xələl gətirmədən (ilk iki) müvafiq sanksiyaların tətbiqi barədə yekun qərardan sonra belə iştirakın qarşısını almaq üçün bütün zəruri tədbirləri görməlidir.

## D. TƏSNİFAT YOLU

### LİSENZİYALAR

**Kişilər/Qadınlar**

| Lisenziyaların sayı | Lisenziya yarışları |
|---|---|
| 50 kişi<br>50 qadın<br>(Cəmi 100 idmançı) | **IWF-in Olimpiya təsnifat reytinqi**<br>• Hər MOK-dan Olimpiya hər bir çəki dərəcəsində iki hərəkətin cəmi (kq) qeyd olunmaqla bir idmançı – IWF-in Olimpiya təsnifat reytinqində dərc olunur.<br>• Olimpiya təsnifat reytinqi idmançıların əldə etdiyi rəsmi nəticələr IWF-in sonrakı Beynəlxalq yarışlarında müqayisə olunacaqdır:<br>➢ 2022 Dünya çempionatı (böyüklər arasında)<br>➢ 2023 Avropa çempionatı (böyüklər arasında) və ya böyüklər arasında Avropa oyunları (əgər böyüklər arasında Avropa çempionatını əvəz edirsə)<br>➢ 2023 Qran-Pri - IWF I<br>➢ 2023 Qran-Pri - IWF II<br>➢ 2023 Dünya çempionatı IWF (böyüklər arasında)<br>➢ 2024 Avropa çempionatı (böyüklər arasında)<br>➢ 2024 Dünya Kuboku IWF<br>• Olimpiya təsnifat reytinqlərinə IWF-in rəsmi saytında https://iwf.sport baxa bilərsiniz.<br>• Qeyri-olimpiya çəki dərəcələrində nəticələr əldə etmiş idmançılar cədvəldə qeyd olunan müvafiq olimpiya çəki kateqoriyasında Olimpiya təsnifat reytinqinə daxil ediləcəklər: Məsələn, 2023 Qran-Pri IWF I turnirində 67 kq çəki dərəcəsində əldə olunan iki hərəkətin cəm |

nəticəsi, 73 kq olimpiya çəki kateqoriyasına daxil ediləcəkdir. Yuxarıda qeyd olunan çəki dərəcəsində əldə olunan ən yüksək cəm nəticəsi idmançının ümumi reytinq sıralamasında qeydə alınacaqdır.

| **IWF kişilər arasında cəki dərəcələri** | **Kişilər arasında Olimpiya çəki dərəcələri** |
|---|---|
| 55 kq (≤ 55.00 kq) | 61 kq (≤ 61.00 kq ) |
| 61 kq (55.01 kq - 61.00 kq) | |
| 67 kq (61.01 kq - 67.00 kq) | 73 kq (61.01 kq -73.00 kq) |
| 73 kq (67.01 kq - 73.00 kq) | |
| 81 kq (73.01 kq - 81.00 kq) | 89 kq (73.01 kq - 89.00 kq) |
| 89 kq (81.01 kq - 89.00 kq) | |
| 96 kq (89.01 kq - 96.00 kq) | 102 kq (89.01 kq -102.00 kq) |
| 102 kq (96.01 kq - 102.00 kq) | |
| 109 kq(102.01 kq - 109.00 kq) | +102 kq (>102.00 kq) |
| +109 kq (> 109.00kq) | |

| **IWF qadınlar arasında cəki dərəcələri** | **Qadınlar arasında Olimpiya çəki dərəcələri** |
|---|---|
| 45 kq (≤ 45.00 kq) | 49 kq (≤ 49.00 kq) |
| 49 kq (45.01 kq - 49.00 kq) | |
| 55 kq (49.01 kq - 55.00 kq) | 59 kq (49.01 kq - 59.00 kq) |
| 59 kq (55.01 kq - 59.00 kq) | |
| 64 kq (59.01 kq - 64.00 kq) | 71 kq (59.01 kq - 71.00 kq) |
| 71 kq (64.01 kq - 71.00 kq) | |
| 76 kq (71.01 kq - 76.00 kq) | 81 kq (71.01 kq - 81.00 kq) |
| 81 kq (76.01 kq - 81.00 kq) | |
| 87 kq (81.01 kq - 87.00 kq) | +81 kq (>81.00 kq) |
| +87 kq (> 87.00 kq) | |

- Paris 2024 Olimpiya oyunlarında olimpiya təsnifatı reytinqinə MOK tərəfindən hər çəki dərəcəsində maksimum 1 (bir) yüksək nəticəli idmançı daxil edilməlidir,
- Əgər olimpiya çəki dərəcəsində 2 (iki) və daha artıq idmançı iki hərəkətin cəmində eyni nəticəni göstərirsə, o halda onlar birinci nəticəni göstərən idmançını müəyyən etmə qaydasında sıralanmalı və ya ehtiyac duyularsa, qərar vermək üçün Qrinviç Orta Vaxtından **(GMT)** istifadə olunacaqdır.

Təsnifat dövrü bitdikdən sonra Olimpiya təsnifat reytinqi üzrə Paris 2024 Olimpiya oyunlarında yarışacaq hər çəki dərəcəsində 10 (on) yüksək nəticəli idmançıya lisenziya veriləcəkdir.

- Əgər idmançı 1 (bir) və daha artıq çəki dərəcəsində birinci (10) on idmançı sırasına daxil olursa, o halda MOK milli federasiya ilə məsləhətləşmə apardıqdan sonra 10 may

| | |
|---|---|
| | 2024-cü il tarixinə kimi hansı olimpiya təsnifatı reytinqi üzrə 1 (bir) çəki dərəcəsində çıxış etməsini elan etməlidir. Bundan sonra idmançı digər olimpiya təsnifatı reytinqi üzrə digər çəki dərəcəsindən çıxarılır. Çəki dərəcəsindən çıxarılan idmançının yerinə iştirak hüququ olan ən yüksək reytinqli növbəti idmançı elan olunur.<br><br>• Əgər MOK olimpiya təsnifatı reytinqində müxtəlif çəki dərəcələri üzrə hər cinsdən 3-dən (üç) artıq idmançı qeydiyyata alıbsa, o halda üyğun MOK milli federasiyası ilə məsləhətləşmələr apardıqdan sonra 22 may 2024-cü il tarixinə kimi hansı idmançıya lisenziya verilməsi bərədə IWF-i məlumatlandırmalıdır. Sifariş olunmayan istənilən idmançılar olimpiya təsnifatı reytinqindən çıxarılacaqlar.<br><br>Olimpiya təsnifatı reytinqi üçün təsnifat dövrü 01 avqust 2022-ci il tarixində başlayacaq və 28 aprel 2024-cü il tarixində isə başa çatacaqdır. |
| 5 (beş) kişi<br>5 (beş) qadın<br>(Cəmi 10 (on) idmançı) | **Olimpiya təsnifatı reytinqi - Qitə nümayəndiliyi**<br><br>IWF tərəfindən tanınan bütün qitə federasiyalarında mümkün qədər geniş təmsilçiliyə nail olmaq (Afrika, Asiya, Avropa, Okeaniya, Pan-Amerika) üçün Olimpiya təsnifatı reytinqindən və aşağıdakı meyarlardan istifadə edərək hər olimpiya çəki kateqoriyasına bir lisenziya ayrılacaq:<br><br>• MOK-da təmsil olunan, lakin qitəsi hələ çəki dərəcəsində 10-da (onluqda) təmsil olunmayan ən yüksək reytinqə malik olan uyğun idmançı öz çəki dərəcəsində lisenziya alacaqdır.<br>• Birdən çox qitənin idmançısı çəki dərəcəsi üzrə 10-da (onluqda) təmsil olunmadıqda, ən yüksək reytinqə malik olan, çəki dərəcəsində bu qitələrin MOK-unu təmsil edən idmançılara lisenziya veriləcək.<br>• Əgər Olimpiya çəki dərəcəsində qitə nümayəndəliyi tərəfindən lisenziya əldə olunubsa, o halda qitə lisenziyası F. bölməsinə müvafiq olaraq bölüşdürüləcəkdir. |

**Təşkilatçı ölkənin lisenziyaları**

Təşkilatçı ölkəyə ümumilikdə 4 (dörd), ondan 2 (iki) kişi və 2 (iki) qadın üçün lisenziyaların verilməsinə zəmanət verilir.

Olimpiya təsnifatı reytinqi vasitəsilə istənilən MOK-u təmsil edən hər hansı digər idmançı lisenziyanı aldığı qaydada Olimpiya Oyunlarını qəbul edən ölkənin idmançıları da qeyd olunan qaydada lisenziya ala bilərlər.

Təşkilatçı ölkə Olimpiya təsnifat reytinqinə əsasən 2 (iki) kişi və/və ya 2 (iki) qadın lisenziyasından az lisenziya qazanarsa, o halda bu bölmədə göstərilən maksimum zəmanətli lisenziyaları əldə etmək üçün MOK-dan hər çəki kateqoriyasında maksimum sayı nəzərə alınmaqla öz seçdiyi uyğun idmançıları əlavə edə bilər.

**Universal lisenziyalar**

Paris 2024 Olimpiya Oyunları üçün uyğun MOK-a 3 (üç) kişi və 3 (üç) qadın olmaqla, ümumilikdə 6 (altı) universal lisenziya təqdim olunur.

01 oktyabr 2023-cü il tarixində Beynəlxalq Olimpiya Komitəsi (BOK) universal lisenziyaların alınmasına sifarişlərin verilməsi üçün müvafiq MOK-u dəvət edəcəkdir. Universal lisenziyaların alınmasına sorğuların verilməsi üçün son tarix 15 yanvar 2024-cü ildir. Müvafiq idman növü üzrə təsnifat dövrü bitdikdən sonra Üçtərəfli Komissiya müvafiq MOK-lar üçün yazılı məktub şəklində lisenziyaların bölüşdürülməsini təsdiq edəcəkdir.

Universal lisenziyalar haqqında ətraflı məlumat “Paris 2024 XXXIII Olimpiya Oyunlarının - Olimpiya oyunlarına universal lisenziya - Lisenziyaların bölüşdürülməsi qaydaları” bölməsində yer alır.

## E. LİSENZİYALARIN TƏSDİQLƏNMƏSİ PROSESİ

**Lisenziyaların təsdiq olunması**

Təsnifat reytinqinin yekun siyahısı IWF tərəfindən 24 may 2024-cü il tarixinə https://iwf.sport.veb-saytında dərc olunacaqdır.

24 may 2024-cü il tarixinə kimi MOK tərəfindən qazanılan lisenziyalar IWF tərəfindən yazılı məktub şəklində təsdiq olunacaqdır.

**G. Təsnifat cədvəli**-ndə ətraflı qeyd olunduğu kimi 31 may 2024-cü il tarixinə kimi MOK alınan lisenziyaları istifadə edəcəyi və ya etməyəcəyi haqda IWF-i məlumatlandırır və təsdiq edir.

**Təşkilatçı ölkənin lisenziyasının təsdiqi**

Təşkilatçı ölkə 10 iyun 2024-cü il tarixindən gec olmayaraq təşkilatçı ölkə üçün nəzərdə tutulan lisenziyaların istifadəsini təsdiq etmək üçün IWF-i yazılı formada məlumatlandırır.

## F. İSTİFADƏ OLUNMAYAN LİSENZİYALARIN YENİDƏN BÖLÜŞDÜRÜLMƏSİ

**İstifadə olunmayan lisenziyaların yenidən bölüşdürülməsi**

Əgər qitə nümayəndəliyi tərəfindən ayrılmış lisenziya 31 may 2024-cü il tarixinədək MOK tərəfindən təsdiq olunmazsa və ya rədd edilərsə, o halda lisenziya qitə üzrə eyni çəki dərəcəsində Olimpiya təsnifatı reytinqində ən yüksək pilləni tutan, hələ ki təqdim olunmayan

idmançıya yenidən bölüşdürülür. Bu halda hər MOK-un kişi və qadın idmançıları üçün ayrılmış maksimum lisenziyaların sayı nəzərə alınmalıdır.

**Təşkilatçı ölkə tərəfindən istifadə olunmayan lisenziyaların yenidən bölüşdürülməsi**

Təşkilatçı ölkə tərəfindən istifadə olunmayan lisenziya, hər MOK-un kişi və qadın idmançıları üçün ayrılmış maksimum lisenziyaların sayı nəzərə alınmaqla, növbəti ixtiyarı olan, eyni çəki dərəcəsində olimpiya təsnifatı reytinqində ən yüksək pilləni tutan növbəti müvafiq idmançıya yenidən bölüşdürülür.

**İstifadə olunmayan universal lisenziyaların yenidən bölüşdürülməsi**

İstifadə olunmayan universal lisenziyalar, hər MOK-un kişi və qadın idmançıları üçün ayrılmış maksimum lisenziyaların sayı nəzərə alınmaqla, növbəti ixtiyarı olan, eyni çəki dərəcəsində Olimpiya təsnifatı reytinqində ən yüksək pilləni tutan, hələ ki təqdim olunmayan növbəti müvafiq idmançıya yenidən bölüşdürülür. Lisenziya sayının hər çəki dərəcəsi üçün tamamlanması vaxtına qədər proses təkrarlanacaq.

## H. TƏSNİFATIN CƏDVƏLİ

| Tarix | |
|---|---|
| 01 avqust 2022 - 28 aprel 2024 | Təsnifat dövrü |
| 15 yanvar 2024 | Universal lisenziyalar üçün MOK tərəfindən verilən sifarişin son tarixi |
| 28 aprel 2024 | Olimpiya təsnifatı reytinqinin başa çatması |
| 01 may 2024 | 1 (bir) çəki dərəcəsindən başqa digər çəki dərəsində 10-da (onluqda) Olimpiya təsnifatı reytinqinə daxil olan idmançının bir çəki dərəcəsinin seçilməsi üçün IWF müvafiq MOK-u xəbərdar edir. |
| 06 may 2024 | Müvafiq MOK-lar başqa digər çəki dərəsində 10-da (onluqda) Olimpiya təsnifatı reytinqinə daxil olan idmançıların çəki dərəcələrinin seçilməsini IWF-ə bildirir. |
| 08 may 2024 | Olimpiya təsnifatı reytinqinin yenilənməsi |
| 10 may 2024 | Kişi və qadın cinsinin bərabər hüquqda 3 (üç) - dən artıq ixtiyarı olan və 10-da (onluqda) Olimpiya təsnifatı reytinqində olan idmançıları olarsa, o halda MOK-a verilmiş idmançıların maksimal sayına müvafiq olaraq, 10-da (onluqda) qalmaqla idmançıların və çəki dərəcələrinin seçilməsi üçün IWF müvafiq MOK-u xəbərdar edir. |
| 15 may 2024 | Müəyyən edilmiş idmançıların maksimal sayı limitinə riayət etməklə, müvafiq MOK-lar 10-da (onluqda) qalacaq idmançılar və onların çəki dərəcələri barədə IWF-i xəbərdar edir. |

| | |
|---|---|
| 16 may 2024 | 3-dən (üç) artıq ixtiyarı olan bərabər hüquqlu kişi və qadın cinsindən idmançı varsa, o halda qitə lisenziyasını almaq hüququna malik, çəki dərəcələri üzrə kişi və qadınlardan ibarət hər 3 (üç) müvafiq idmançının seçimini aparmaq üçün IWF MOK-a bildiriş göndərir. |
| 23 may 2024 | İdmançıların maksimal say həddinə riayət etməklə MOK çəki dərəcələrinə uyğun qitə lisenziyalarını almaq hüququna malik, seçilmiş müvafiq idmançılar haqqında IWF-i məlumatlandırır. |
| 24 may 2024 | Olimpiya təsnifatı reytinqinə müvafiq olaraq hər bir çəki dərəcəsində 10-luq (onluq) və qitə nümayəndəliyi vasitəsilə əldə olunan lisenziyaların bölüşdürülməsi haqqında IWF MOK-a bildiriş verir və yekun məlumatı dərc edir. |
| 31 may 2024 | MOK IWF tərəfindən ayrılmış lisenziyaların istifadə olunmasını təsdiqləyir. |
| 03 iyun 2024 | IWF istifadə olunmamış lisenziyaların yenidən bölüşdürülməsi üçün müvafiq MOK-u təsdiqləməlidir. |
| 10 iyun 2024 | MOK yenidən bölüşdürülmüş lisenziyaların istifadəsini IWF-də təsdiqləyir. |
| 11 iyun 2024 | IWF təşkilatçı ölkə üçün nəzərdə tutulmuş lisenziyanın sayı barədə xəbərdar edir. |
| 12 iyun 2024 | Təşkilatçı dövlət istifadə olunmuş lisenziyaları təsdiq edir. |
| 12 iyun 2024 | IWF universal lisenziyaların çəki dərəcələri üzrə mümkünlüyü barədə MOK-u xəbərdar edir. |
| 14 iyun 2024 | Üçtərəfli komissiya MOK-lara bölüşdürülmüş universal lisenziyaları məktub vasitəsilə təsdiqləyir. |
| 14 iyun 2024 | Təşkilatçı ölkənin hər hansı bir lisenziyasının yenidən bölüşdürülməsi üçün IWF müvafiq MOK-u təsdiq edir. |
| 21 iyun 2024 | MOK təşkilatçı ölkənin yenidən bölüşdürülmüş lisenziyalarının istifadə olunmasını IWF-də təsdiqləyir. |
| 21 iyun 2024 | MOK ayrılmış universal lisenziyaların istifadə olunmasını IWF-də təsdiqləyir. |
| 24 iyun 2024 | IWF hər hansı bir universal lisenziyaların yenidən bölüşdürülməsini təsdiqləyir. |
| 01 iyul 2024 | MOK yenidən bölüşdürülmüş universal lisenziyaların istifadə olunmasını IWF-də təsdiqləyir. |
| **08 iyul 2024** | **Paris-2024 Olimpiya Oyunlarına idman sifarişlərinin verilməsinin son tarixi** |
| **26 iyul 2024 - 11 avqust 2024** | **Paris-2024 Yay Olimpiya Oyunları** |